# Qaşqaylar və onların folkloru

Folklorşünas alim
Əli Şamilin "Qaşqaylar və onların folkloru" kitabını
oxuculara təqdim edirik

*əvvəli ötən saylarımızda*

**Sonuc**

Ağ alma, qızıl alma,
Sat mənə qızıl alma.
Cavanlıq gələr keçər,
Üzümü geri salma

Ağ dağlar, yassı dağlar,
Qar gəldi basdı dağlar,
Üç ay sazlı-söhbətli,
Doqquz ay yaslı dağlar.

Aya bax, nice gedər,
Örgenmiş gecə gedər,
Qız döşü? arasında,
Bir yol var, Haca gedər.

Ağ Qurunun kahısı,
İşdim qaldı yarısı,
Mən işdim yar işmədi,
Oldu ilan ağısı.

Bir qız gördüm heleyçi,
Saçı belində qəmçi,
Gözləri gəl-gəl edər,
Kirpikləri yalançı.

Bu dərə başdan gələr,
Süzülür daşdan gələr.
Hər kimi? yarı vardır,
Səhər o başdan gələr.

Bu dərə buz bağladı,
Dibi yarpız bağladı,
Qonaq oldum bir evə,
Atı mı qız bağladı.

Bu dərə piyanlıdır(biyanlıdır),
Bu piyan qumanlıdır,
Mənim evim yandıran,
Gedən ağ tumannıdır.

Bu dərenin boyunu,
Çoban qaytar qoyunu,
Nə olaydı bir görəm,
Nazlı yarın boyunu

Bu dərəynən duz gəlir,
İkki tərlan qız gəlir.
Biri mənim yarımdı,
Biri əyəsiz gəlir.

Bura gowdı (çöl, səhra) Kunarı,
Boyu? Meymənd çinarı,
Üzü? döndər beri bax,
Səni yaradan Tarı.

Çahzalı boynağında,
Qoç-quzzu yatağında,
Qar yağar caydağında (can dağında)
Dudaq qoyag dudağa,
Nazlı yar qucağında.
Dərbənd ki, deyərlər,
Bir parça bağdır.

Alt yanı dəryadır,
Üst yanı dağdır
Dəryaya atdı məni,
Balıxlar utdu məni,
Bilməm hansı gözəlin,
Qərğişi tutdu məni.

Dərya qırağındəkilər,
Ağ əllər, göy miləklər,
Oğul qızın dərdinnən,
Qah gedər, qah iməklər.
Göydə ulduz olaydım,
Dibəkdə duz olaydım.
Yarım bizə gələnnə,
Mən yalınqız olaydım.

Kəhər atın qulunu,
Məxmər edin çulunu,
Biz gəlmişik aparak,
Sizin bağın gülünü.
Kəhər at nalı neylər,
Ağ boğaz xalı neylər,
Mümzadı qəşeng oğul,
Dünyada malı neylər?!
Kumuca (balaca) bel bıçağı,
Mən oldum yar naçağı.

Bir səhər gəl, bir pesin
(ikindi, günorta ilə axşam arası),
Bir də günorta çağı.
Qoz ağacı qolum yar,
Qol boyna salım yar,
Necə mənsiz gəzirə?,
Daş ürəkli zalım yar.

Mixək əkdim bucağa,
Şamı qoydum ocağa,
Qorxma ürəksiz kakam,
Özü gəlir qucağa
Oğul bir gin çapıtdır,
Deyə bəxtin yatıpdı,
Tə sən gedin mal bulan,
Qoça qızı satıpdır.
Yığılır gəlir min adlı (atlı),
Seyrini görər bir adlı (atlı).

*Söylədi: Zəhra Qənixanı, Şiraz, 55 yaşında.*

**MƏRASİM NƏĞMƏLƏRİ**

Qaşqay qadınları və qızlarının yun darayarkən və ya əyirərkən oxuduqları mahnılardan nümunələr:

**XALQ MAHNILARI**

Xalq mahnılarının mətinləri bayatı formasında 7 hecalı və gəraylı formasında 8 hecalıdır. Musiqisi 6-8 ritmində olan mahnılar əsasən şur dəsgahı üstündə oxunur.

Kəsmə, nar ağacıyam
Sərhəddi? yeli esdi (Qaşqaylar yaylağa, dağa
Fars. "sərhəd" də deyirlər),



Qoz ağacı, qozu yox,
Altı çəmən toxu yox,
Ana durar yer yığə,
Baxar, görər qızı yox.
O tayda quzu gördüm,
Teli qırmızı gördüm,
Açıldı cənnət dəri,
Sevdigim qızı gördüm.

O taydakı towada (qaya),
İki quş bir yuvada,
Yarım atlanmış gedir,
Mən qalmışam piyada.

Səhər-səhər gün dəmi,
Qurrumuş ağzım nəmi.
Üzü? dönnər bir öpəm,
Açıla gözüm dəmi.
Yer sarı, gədik sarı,
El köçdü Farsa sarı,
Ann vermişəm Tarıya,
Bir dön bax bizə sarı.

Yarı yolladım ləkə,
Qorxuram peslik çəkə,
Təmmaxısı (tənbəkisi) tükənmiş,
Mixək yollaram çəkə

**Göndərən: Ərsalan Mirzəyi, 42 yaşında, ali təhsilli. Ərəb əlifbasından Latın əlifbasına çevirən Fərhad Cavadi.**

Əlim əlim xınası,
Əlim Gülgəz xınası.
Yağlıx geti oynuyam,
Kürəkenin anası.
Gin getdi pəsin oldu,
Od gəldi, xəsil oldu,
Getmədim ala gözdən,
Can gəldi təslim oldu.
Gin getdi zərdə qaldı,
El gitdi gərdə qaldı,
Getmədim ala gözdən,
Ürəkdə dərdə qaldı
Qızım, qızım hərili qızım,
Şah Abbasın gəlini qızım.
Böyün sava nişan gəlir,
Kətxudadan bişan gəlir.
Mixəy əkdim gördülər,
Göyərməmiş dürdülər,
Xoş o kakam halına,
Sevdigini verdilər.

Əlim şir (şir, aslan), əlim şir,
Şir, gəl mənə məded ver.
Məded verənim yoxdur,
Çörək yeyənim çoxdur,
Vuran, söyənim çoxdur.

Towlar (işlər) əlim, ırlar dilim,
Towlaram ta ola gilim (kilim)
Towar bacı, tow ver gələ,
Xanım bacı, xam (xam ip) ver gələ.
Hər rəngdə bir yaz olsun,
Hər nəqşə şahbaz olsun.

Qadınlar çəltiyi qabıqdan çıxarmaq üçün həvənglərdə döyərkən oxuduqları mahnılardan nümunələr:

Hayna, heli hayna, siz da dey? hayna,
Biz de dereg hayna, varı dey? hayna.
O tayda yar obası, döğülür nağarası.
Boğca gətir gül apar, xəlvətdir bağ arası.
Hayna, heli hayna, siz də deyi? hayna,
Biz də dereg hayna, varı deyi? hayna.
Kəhər atı? qulunu, məxməl edi? çulunu.
Biz gəlmişək aparag, sizi? bağın gülünü.
Ülgerəm, aya bendəm, çeşməyəm, çaya bəndəm,
Üzü? döndər bir öpəm, hesrətli vaya mendəm.
Hayna, haynalı qızlar, cibi aynalı qızlar,
Aynayı ver mən baxam, qəşeng deməli qızlar.

Ay aydındır ay batmaz, itlər dulanır, yatmaz,
Şahmar çalsu? anay?ı ki sənnən ayrı yatmaz,
Dağdan endirdim qarı, məcməyə düzdüm narı,
Bezədim yola saldım, naz ow ğəmzəli yarı.

**Mərasim nəğmələrini Mənuçehr Kəyaninin doktorluq dissertasiyasından aldıq.**

Sovuğu məni kesdi.
Bir gözüm yara qurban,
Bir gözüm mənə bəsdi.
Nəqarət
Kəsmə, nar ağacıyam
Şirin bar ağacıyam
Kəsmə, narım töküldü
Şirin barım töküldü
Qız, qaşlari edər qan,
Məst gözləri alar can.
Mən bir tənəm dörd əcəl
(tən - vücüd, bədən; dört əcəl - burada: iki göz və iki qaşı dört dənə can alan Əzrayilə təşbih edmişdir - Cəfər Eyvəzi Yadıkuri).
Müşkildir aparam can.

Nəqarət
Kəsmə, nar ağacıyam,
Şirin bar ağacıyam.
Kəsmə, narım töküldü,
Şirin barım töküldü.
Hayna həli
Çeşməni? başi mənəm,
İçini? daşi mənəm.
Yar gəldi geçdi burdan,
Əlini? quşu mənəm.

Nəqarət
Hayna, həli, hayna,
Biz də dereg: "hayna",
Siz də deyi?: "hayna".
Hayna, həli, hayna,
Varı deyi? hayna,
Hayna, həli, hayna,
Bu tayda oynamışam,
Baş yerə qoymamışam.
Yar gəlmiş, burdan getmiş,
Mən xəbər olmamışam.
Nəqarət
Hayna, həli, hayna,
Biz də dereg: "hayna",
Siz də deyi?: "hayna".
Hayna, həli, hayna,
Varı deyi? hayna,
Hayna, həli, hayna.
Suda baliq yan gedər,
Kəsmə, bağrım qan gedər.
Üzü? döndər, bir öpəm,
Əcəl gəlmiş, can gedər.
Nəqarət
Hayna, həli, hayna,
Biz də dereg: "hayna",
Siz də deyi?: "hayna".

Hayna, həli, hayna,
Varı deyi? hayna,
Hayna, həli, hayna.
Marala bax, bax-bax
İrəvandan gəldim bəri,
Marala bax, bax-bax!

Əbdal oldum, dögdüm dəri (qapı),
Marala bax, bax-bax!
Sevdim alagöz dilbəri,
Marala bax, bax-bax!
Yar içmiş məst o məstanə,
Ceyrana bax, bax-bax!
İrəvanda bir quyu var,
Marala bax, bax- bax!
Şəkərdən şirin suyu var,
Marala bax, bax- bax!
Hər gözəli? bir xuyu (xasiyyəti) var,
Marala bax, bax- bax!
Yar içmiş məst o məstanə,
Ceyrana bax, bax-bax!
Kəylik qonmuş daş üstünə,
Marala bax, bax- bax!
Qələm çəkmiş qaş üstünə,
Marala bax, bax- bax!
Hər nə deyi? baş üstünə,
Marala bax, bax- bax!
Yar içmiş məst o məstanə,
Ceyrana bax, bax-bax!
Yar gəl, ay gəl
Getdim gördüm su doldurur,
Yar gəl, ay gəl.
Su yerinə gül doldurur,
Yar gəl, ay gəl.
Nəqarət
Yar mehrəbanım, gəl ay, gəl ay,
Bir şirin zəbanım, gəl ay, gəl ay.
Getdim gördüm bulağdadir,
Yar gəl, ay gəl.
Əl-üzünü yumagdadır,
Yar gəl, ay gəl.
Nəqarət
Yar mehrəbanım, gəl ay, gəl ay,
Bir şirin zəbanım, gəl ay, gəl ay.
İsladım Xəmis xınasın, gül gülabdan (Xəmis - xınası ilə məşhur kənd),
Bəzətdim hiclə otağı, gül gülabdan.

*Toplayıb göndərən: Ərsalan Mirzəyi, 42 yaşında, ali təhsilli, Ərəb əlifbasından Latın əlifbasına çevirən Sami Sərdarimilli*

*ardı var...*